**Zəfər.** Xocavənd döyüşlərinin igid oğlu // Respublika. - 2025. - 30 iyul. - **№ 156**. - S. 11.

İkinci Qarabağ müharibəsində mətin, qeyrətli oğullarımız 30 il düşmən tapdağında olan Vətən torpaqlarının azadlığı uğrunda canından keçərək şanlı tarix yazdılar. Müqəddəs, ulu yurd yerimiz Qarabağa zəfər bayrağı sancanlardan biri də 1987-ci il dekabrın 25-də Cəlilabadın Göytəpə şəhərində anadan olan Muxtar Rəhim oğlu Babayevdir.

Muxtar qısa, gələcək nəsillərə də örnək olacaq şərəfli ömür yaşadı. Muxtar Babayev 2006-ci ildən ürəyində mənfur düşmənə qarşı nifrət hissi cəbhə bölgəsində Vətənin keşiyində durub. Nümunəvi xidməti, təlimlərdə fəallığı ona əsgər və zabitlərin yanında yaxşı hörmət qazandırıb. Hamı onu təmiz ürəkli, vicdanlı, qeyrətli, yurduna, torpağına bağlı gənc kimi sevib. Əsgərlik həyatı mərdliklə, fədakarlıqla dolu Muxtar xidmətdən evə üzüağ qayıdıb...

Lakin Vətəninin ağır günündə rahat yaşamağı vicdanına sığışdıra bilməyib. Yerini hərbidə görən Cəlilabadın igid oğlu 2008-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qayıdıb. Bir müddət təcrübə keçəndən sonra kiçik çavuş rütbəsində müddətdən artıq həqiqi hərbi qulluqçusu olaraq xidmət keçib.

Nəhayət, kiçik çavuş Babayev 2016-cı ilin Aprel döyüşlərində erməni silahlıları ilə üz-üzə gəlib. Vətənin qeyrətli oğlanları ilə bərabər Muxtarın düşmənə vurduğu sarsıdıcı zərbələr nəticəsində onlar çoxlu canlı qüvvə, texnika, hərbi sursat itirərək ağır məğlubiyyətlə qaçmağa məcbur olub. Nəticədə Lələtəpədə Azərbaycanın qələbə bayrağını ucaldan qəhrəmanlardan biri də Muxtar olub..

Düşməndən Vətənin qisası alınan gün 27 sentyabr 2020-ci il gəlib çatıb. Ali Baş Komandanın verdiyi əmrə əsasən İkinci Qarabağ müharibəsində atıldığı ilk döyüşdə düşmənin kabusuna çevrilib. Vətən, torpaq məhəbbəti sayəsində neçə-neçə ağır sınaqlardan zəfərlə çıxıb. Xocavəndin azadlığı uğrunda mərdliklə savaşıb. Noyabr ayın 2-də düşmən gülləsi Muxtarı döyüşdə haqlayıb. Şəhid Muxtar Babayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.